1-1_tovuz.qxd 19.04.2017 16:45 Page 1


# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 13-14 (7494-7495) * 15 aprel 2017-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Rayonumuzda qeyri-neft sektorunun mühüm sahəsi kimi kənd təsərrüfatının inkişafı istiqamətində müsbət irəliləyişlər əldə edilmişdir

***Aprelin 14-də Tovuz RİH başçısı yanında cari ilin birinci rübündə rayonda sosial-iqtisadi inkişaf sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunan geniş şura iclası keçirilmişdir. İclasda rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov məruzə ilə çıxış etmişdir. Həmin məruzədən əsas müddəaları diqqətinizə çatdırırıq.***

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprel ayının 10-da Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlətimizin başçısı iclasda 2017-ci ilin birinci rübündə respublikamızın sosial-iqtisadi inkişafı sahəsində görülən işləri ətraflı təhlil etmiş, qarşıda duran vəzifələr barədə müvafiq tapşırıq və göstərişlərini vermişdir.

Ölkədə həyata keçirilən təkmili islahatlar, davamlı inkişafa xidmət edən addımlar, inkişafın Azərbaycan modelinin uğurları cari ilin ötən dövründə də özünü göstərmişdir. Cənab Prezident iclasdakı nitqində birinci rüb üçün sosial-iqtisadi göstəricilərin ürəkaçan olduğunu bildirmiş, iqtisadi potensialın gələcəkdə daha da gücləndiriləcəyinə əminliyini ifadə etmişdir.

Bu ilin ilk üç ayı ərzində qeyri-neft sektorunda 2,4 faiz artım olub, qeyri-neft sənayesində isə 2 faiz səviyyəsindədir. Kənd təsərrüfatı 3,5 faiz, bitkiçilik 20 faizdən çox artıb. Valyuta ehtiyatlarımız 1 milyard dollar çoxalıb. Dövlətimizin başçısı bildirmişdir ki, bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollar təşkil edir. Bu önəmli bir məsələdir. Bu ilin ilk üç ayı ərzində ticarət dövriyyəsi 15 faiz, ixrac təxminən 50 faiz, qeyri-neft ixracımız 10 faiz artıb. İdxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyimizi təmin edir. Ticarət dövriyyəsinin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir. Bu göstəricilər iqtisadi inkişafımızı aydın əks etdirir.

Bu ilin birinci rübündə ölkədə 85 min yeni iş yeri yaradılıb. Yeni iş yerlərinin yaradılması təkcə dövlət deyil,



özəl sektorda da davam edir. Özəl sektorda 40 mindən çox yeni iş yeri yaradılıb. Bu iqtisadi inkişafın təzahürüdür. Sahibkarlığın inkişafına xidmət edən addımların davamlılığı diqqətdən kənarda qalmır. Şəffaflığın təminatı dayanaqlı inkişafın əsası kimi öndədir və cənab Prezidentin qeyd etdiyi kimi "Asan xidmət" bu sahədə uğurlu nəticələrin əldə olunmasına öz töhfəsini verir.

Dövlətimizin başçısı iclasdakı nitqində beynəlxalq məsələlərə də xüsusi yer ayırmışdır. Bildirmişdir ki, ölkəmizin beynəlxalq tədbirlər üçün əsas məkan seçilməsində, eyni zamanda qarşılıqlı səfərlərin say tərkibinin genişləndirilməsində və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində hərtərəfli inkişafımız əhəmiyyətli rol oynayır. "İslam Həmrəyliyi ili"nin ilk üç ayında cənab Prezidentin üç müsəlman ölkəsinə- Qətər, Pakistan və İran İslam Respublikasına səfəri islam həmrəyliyinin möhkəmləndirilməsində Azərbaycanın nə kimi rola malik olduğunu bir daha nümayiş etdirir. Ümumiyyətlə, bu ilin üç ayında cənab Prezident xarici ölkələrə yeddi səfər etmiş, eyni zamanda yeddi xarici dövlət başçısını qəbul etmişdir. Onlar Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin inkişafı baxımından çox önəmlidir.

Cənab İlham Əliyev nitqində xüsusi olaraq vurğulamışdır ki, Azərbaycanın iqtisadi qüdrətinin artması, beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmləndirilməsi yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə gedən yolu yaxınlaşdırır. Bu günlərdə bir illiyini qeyd etdiyimiz aprel döyüşləri işğalçı dövlətə həqiqəti çatdırdı. Bu həqiqəti ki, diplomatik mübarizədə qələbə qazanan Azərbaycan münaqişənin həllində hərb yolunu seçərsə, qələbəsi şəksizdir. Azərbaycan ordusu gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Bu döyüşlər zamanı azad edilən Lələ təpə yüksəkliyi, Cocuq Mərcanlıda bərpa işlərinin aparılmasına yol açmaqla Qarabağa Böyük Qayıdışa əminlik yaratdı. Dövlətimizin başçısı hər çıxışında bu əminliyi də ifadə edir ki, arxada qalan hər ay, hər gün bizi qələbəyə yaxınlaşdırır.

Ölkəmizin hər yerində olduğu kimi cari ilin birinci rübündə rayonumuzda da bir sıra uğurlu nəticələr əldə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq rayon ərazisində qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatında islahatların genişləndirilməsi, ənənəvi sahələrin dirçəldilməsi, torpaqlardan səmərəli istifadə olunması, investorların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və yerli əhalinin məşğulluq səviyyəsinin artırılması ilə bağlı ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Rayonumuzda qeyri-neft sektorunun mühüm sahəsi kimi kənd təsərrüfatının inkişafı istiqamətində müsbət irəliləyişlər əldə edilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin 2017-ci il 9 fevral tarixli 28 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq rayonda aqrar-sənaye kompleksinin inkişafı sahəsində tapşırıqların icrası ilə əlaqədar bir sıra işlər görülmüş və bu sahədə lazımi tədbirlər davam etdirilməkdədir.

*(davamı səh. 2-də)*

1-1_tovuz.qxd 19.04.2017 16:45 Page 2



# Rayonumuzda qeyri-neft sektorunun mühüm sahəsi kimi kənd təsərrüfatının inkişafı istiqamətində müsbət irəliləyişlər əldə edilmişdir

*(əvvəli səh. 1-də)*

Proqramın üçüncü ilinin icrası ilə bağlı keçirilən Konfransda cənab Prezidentin tapşırıqları və irəli sürülən təkliflər RİH başçısı yanında geniş Şura yığıncağında ətraflı təhlil edilmiş, rəhbərlik və icra üçün qəbul edilmişdir. RİH başçısının müvafiq sərəncamı ilə qeyri-neft sektorunun inkişafı, ənənəvi istehsal sahələrinin dirçəldilməsi məqsədilə kənd təsərrüfatının müxtəlif sahələri üzrə (üzümçülük, taxılçılıq, kartofçuluq, baramaçılıq, tütünçülük, şəkər çuğunduru əkini, tərəvəzçilik, heyvandarlıq) mütəxəssislərdən ibarət işçi qrupları yaradılmışdır. Aqrar sektorun müxtəlif sahələrində çalışan sahibkarlar, fermerlər, ailə kəndli təsərrüfatlarının başçıları və torpaq mülkiyyətçiləri ilə seminar-müşavirələr keçirilmiş, mövcud potensialdan səmərəli istifadə olunması üçün lazımi maarifləndirmə işləri aparılmışdır. Cari mövsümdə kənd təsərrüfatında ciddi irəliləyişlərə nail olunması üçün aidiyyati qurumlar səfərbər olunmuşdur.

Nazirlər Kabinetinin iclasında cənab Prezident ölkədə taxıl istehsalı, xüsusilə ərzaq buğdası istehsalı sahəsindəki vəziyyətlə bağlı narahatlığını ifadə etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə Ceyrançöl qış otlaqlarında 12 min hektar sahənin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə aid edilmiş və cari ilin məhsulu üçün burada ərzaq buğdası səpilmişdir. Taxılla özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə keçən ilə nisbətən 13731 hektar çox sahədə taxıl əkini aparılmışdır. Səmərəsiz istifadə olunan örüş sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi sahəsində tədbirlər davam etdirilir.

Bu il rayonda 10 ton barama istehsal edilməsi üçün bütün hazırlıq işləri görülmüşdür. Belə ki, 27 kənddə barama bəslənəcək binalar müəyyən edilmiş, kümxanalar aqrozootexniki tələblərə uyğun təşkil olunmuşdur. Bu binaların əksəriyyətinin içərisi ağardılmış, dezinfeksiya olunmuş və tərəcələr qurulmuşdur. İpək qurdunun yem bazasının möhkəmləndirilməsi məqsədilə 2016-cı ilin payızında Çin Xalq Respublikasından gətirilmiş 10000 ədəd çəkil ağacları əkilmişdir. Çəkilliklərə lazımi səviyyədə qulluq təşkil olunmuş, vaxtında suvarma işləri aparılmış və orta hesabla 90% bitiş alınmışdır. Çəkilliklər lazımi qaydada mühafizə olunur.

Rayonda şəkər çuğundurunun əkilməsi üçün konkret yerlər müəyyənləşdirilmiş, 500 hektardan çox şum qaldırılmış, arat işləri aparılmış, torpağın səthi hamarlanmış və indiyədək 320 hektar sahədə səpin aparılmışdır və sahələrin suvarılmasına başlanmışdır. Şəkər çuğunduru səpini davam edir və biz şəkər çuğunduru sahələrinin daha da genişləndirilməsi əzmindəyik. Suvarma sistemləri idarəsi, yerli icra nümayəndələri və sahibkarlar cuğundur sahələrinin optimal müddətdə suvarılmasını təmin etməlidirlər.

Rayonda tütün əkini məqsədilə lazımi infrastruktura malik olan, su mənbəyi və suvarma şəbəkəsi olan əlverişli torpaqlar müəyyən edilmiş, tütün əkiləcək sahələr üzrə torpaq analizləri aparılmış, toxum tədarük edilmiş və şitilliklərə toxum səpilmişdir. Rayonun 27 yaşayış məntəqəsinin ərazisində cəmi 50 hektar sahədə tütün əkilməsini planlaşdırırıq. Bu kəndlərin hamısında tütün şitili istilikxanaları yaradılmışdır. İstilikxanalarda Berley və İmmunnı-580 sortları yetişdirilir. Tütün əkininə may ayının əvvələrində başlanması nəzərdə tutulur.



Bağçılığın inkişafına diqqət artırılmış və payız-yaz mövsümündə yerli şəraitə uyğun olaraq 201 hektar sahədə yeni meyvə bağları ( fındıq, gilas, xurma, alma, nar və.s) salınmışdır. O cümlədən cari mövsümdə 13 ha sahədə yeni fındıq bağı salınmış və fındıq bağlarının ümumi sahəsi 35,5 hektara çatdırılmışdır. Ümumilikdə rayon ərazisində 1386 hektar meyvə bağı vardır. Bağlarda xaricdən gətirilmiş məhsuldar meyvə sortları yetişdirilməsinə başlanmışdır və istehsal olunan məhsulların müəyyən hissəsinin xarici bazarlara ixrac olunması nəzərdə tutulur.

Üzümçülük və şərabçılıqla bağlı tədbirlərin həyata keçirilməsi, xarici bazarlara çıxış üçün dövlət dəstəyinin göstərilməsi, şərab məhsulları ixracının artırılması və bu sahədə şərab istehsalçıları və ixracatçıları Assosiasiyası ilə əlaqələrin qurulması istiqamətində lazımi təşkilatı tədbirlər görülür. Rayonda 664 hektar üzüm bağı vardır ki, bunun 33 hektarı son ildə salınmışdır. Ərazidə 8560 ton ümumi tutumu olan 13 soyuducu fəaliyyət göstərir. Əvvələr qeyd etdiyim kimi, cənab Prezidentin kənd təsərrüfatının rayonlaşdırılması barədə çağırışlarına uyğun olaraq bizim gələcək hədəfimiz üzüm sahələrinin 3000 hektara çatdırılmasıdır.

1 aprel 2017-ci il tarixinə 6343 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır ki, bu ötən ilin müvafiq dövrünə nisbətən 6,6 faiz çoxdur. Yazlıq bitkilərin səpini davam etdirilir.

Əsas kənd təsərrüfatı məhsullarından olan kartofun əkin sahəsinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. İndiyədək ötən illə müqayisədə 221 ha çox sahədə kartof əkilmiş və əkin davam etdirilir. Rayonda torpaq ehtiyatlarından səmərəli istifadə olunması, əkilməmiş bir qarış belə torpaq sahəsinin qalmaması üçün tədbirlər görülür. Bunun üçün fermerlərə lazımi dəstək verilir.

Rayonda orta hesabla 20307 hektar torpağın suvarma suyu ilə təmin edilməsi imkanı vardır və əkilən sahələrə xidmət edən suvarma şəbəkələri saz vəziyyətə gətirilmişdir. Bu il kənd təsərrüfatının inkişafı üçün daha 331 hektar torpaq yeni sahəsinin suvarılması nəzərdə tutulur. Dövlət başçısı suvarma tədbirləri kənd təsərrüfatı istehsalını artıran amillərdən birincisi kimi dəyərləndirmişdir.

Heyvandarlığın səmərəli şəkildə inkişaf etdirilməsi, əlavə cins mal-qara gətirmək şərti ilə süd və süd məhsulları istehsalının artırılması, cins heyvandarlıq təsərrüfatlarının yaradılması üçün lazımi tədbirlər görülür. Qapalı şəraitdə 1000 başlıq müasir heyvandarlıq kompleksi yaratmaq məqsədilə 550 hektar torpaq sahəsi ayrılmışdır və yem bitkiləri əkilməsi üçün 400 hektar sahədə şumlama işləri aparılmışdır. Kompleksdə onlarla yeni iş yerlərinin açılacağı gözlənilir.

Müvafiq normalara riayət etmədən istifadə olunan örüş sahələrinin müəyyən edilməsi, münasib yerlərdə örüş sahələrinin və meşə fondu torpaqlarının əkin dövriyyəsinə cəlb edilməsi, hər bir sahəyə fərdi qaydada baxılması, bitkiçiliyin və heyvandarlığın inkişafının bir-biri ilə uzlaşdırılması üçün lazımi tədbirlər görülür. Bu məqsədlə Ceyrançöl qış otlaqlarından istifadənin vəziyyətini öyrənmək üçün müvafiq komissiya yaradılmış və inventarizasiya işlərinə başlanmışdır.

Apardığımız işlərin nəticəsidir ki, cari ilin birinci rübündə rayonda kənd təsərrüfatı məhsulları istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artmışdır. Hesabat dövründə rayonda 1657 ton ət, 6793 ton süd, 4 milyon 400 min ədəd yumurta istehsal olunmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qara 200 baş, qoyun və keçilər isə 622 baş artmışdır. Rayonda heyvanların cins tərkibinin yaxşılaşdırılması üçün 124 baş heyvan süni mayalandırılmış və bu dövrdə 130 baş bala alınmışdır.

Arıçılığın inkişafı etdirilməsi, bal ixracının artırılması məqsədi ilə yeni məhsuldar arı cinslərinin rayona gətirilməsi üçün əlavə dəstəkləyici tədbirlər görülür. Rayon üzrə 5260-dan çox arı ailəsi mövcuddur. Ötən il 47,1 ton bal istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 0,5 ton çoxdur.

*(davamı səh. 3-də)*

1-1_tovuz.qxd 19.04.2017 16:45 Page 3



# Rayonumuzda qeyri-neft sektorunun mühüm sahəsi kimi kənd təsərrüfatının inkişafı istiqamətində müsbət irəliləyişlər əldə edilmişdir

*(əvvəli səh. 2-də)*

Aqrar-sənaye kompleksinin inkişafı sahəsində dövlət tapşırıqlarının yerinə yetirilməsi istiqamətində görülən işlər ardıcıllıqla davam etdirilir.

Rayon ərazisində Aqropark yaradılmasının dəstəklənməsi məqsədilə Tovuz şəhəri ərazisində 10 hektar torpaq sahəsi müəyyənləşdirilmişdir. Burada bütün xarici kommunikasiyalar, su, kanalizasiya, təbii qaz, elektrik, rabitə, dəmiryolu xətti, avtomobil yolu vardır. Eyni zamanda, rayonda əmək və xammal ehtiyyatları kifayət qədərdir. Sözügedən torpaq sahəsi Sənaye Məhəlləsinin yaradılması üçün tam yararlı vəziyyətdədir. Cənab Prezidentin qeyd etdiyi kimi hər bir rayonda bu sənaye məhəllələri yaradılmalıdır.

Hesabat dövründə rayon üzrə təsdiq olunmuş 1 mln 604 min manat proqnoza qarşı 1 mln 977 min manat vəsait daxil olmuş, proqnoz 123,2% yerinə yetirilmişdir. Yerli xərclər 2 mln 951 min manat proqnozlaşdırılmış və 2 mln 416 min manat icra olunmuşdur.Yerli xərcləri tənzimlənmək üçün 1 mln 113 min manat dotasiya alınaraq xərclərin aparılması təmin olunmuşdur.

2017-ci ilin birinci rübündə özəl banklar və kredit təşkilatları tərəfindən 790 nəfərə 1 milyon 592 min manat kredit verilmişdir. Sahibkarlığa Kömək Milli Fondundan 3 layihənin maliyyələşdirilməsinə 37 min manat güzəştli kredit verilmişdir.

Cari ilin birinci rübündə rayon üzrə 2125 ailəyə ünvanlı sosial yardım ödənilmişdir ki, bunun da aylıq məbləği 327 min 250 manat təşkil edir. Nazirlər Kabinetinin iclasında cənab Prezident qeyd etmişdir ki, əlbəttə, dövlət çətin vəziyyətdə yaşayan vətəndaşlara həmişə qayğı göstərir, ünvanlı sosial yardım proqramı icra edilir. Ancaq biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir, daha yaxşıdır. Onların öz ailə büdcələri olacaqdır. Sadəcə, biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Amma dövlət ilk mərhələdə onlara kömək göstərəcək. Cənab Prezident aidiyyatı mərkəzi icra orqanlarına qeyd edilən vəzifələrin həyata keçirilməsi ilə bağlı lazımi tapşırıqlar vermişdir.

Rayonda "Ərazi Məşğulluq Proqramı"nın yerinə yetirilməsi istiqamətində mühüm işlər görülür. Cari ilin birinci rübündə Məşğulluq Mərkəzi tərəfindən 371 nəfərə işə göndəriş vərəqəsi verilmiş, 365 nəfər işaxtaran vətəndaş 14 müəssisə və təşkilatda, o cümlədən 179 nəfər dövlət müəssələrində, 186 nəfər isə özəl sektorda işlə təmin olunmuşdur.

2017-ci ilin birinci rübündə tikinti-quruculuq və abadlıq işləri, digər sosial proqramlar davam etdirilmişdir. Ağbulaq kənd tam orta məktəbinin binasının tikintisi aparılır. "Çoxmənzilli binaların təmiri" işləri üzrə işçi kontingenti 186 nəfərdən ibarət tam formalaşdırılmışdır. Hazırda Tovuz şəhərində bir ədəd 5 mərtəbəli və dörd ədəd 2 mərtəbəli yaşayış binalarında, Qovlar şəhərində dörd ədəd 2 mərtəbəli və Əyyublu kəndində dörd ədəd 2 mərtəbəli yaşayış binalarında təmir işləri aparılır. Binaların fasad və bloklarında rənglənməyə hazırlıq işləri görülür.

Düz Cırdaxan kəndində inşa edilən "Xalça istehsalı müəssisəsi"nin özül hissəsinin qurulması başa çatmaq üzrədir.

Cənab Prezidentin "bu il və gələn il Azərbaycanda bir dənə də olsa qəzalı məktəb qalmamalıdır" göstərişinin icrası



ilə bağlı Tovuz rayonunda qəzalı vəziyyətdə olan 14 məktəb binasından bu il Ağacqala, Lazılar və Qandallar kəndlərində yeni məktəb binalarının tikilməsi nəzərdə tutulur. Eyni zamanda, Tovuz şəhərində Dövlət Bayrağı muzeyi, tarix diyarşünaslıq muzeyi, Yüksək gərginlikli elektrik yarımstansiyası, dənli bitki toxumlarının istehsalı stansiyasının tikilməsi və istifadəyə verilməsini planlaşdırmışıq.

Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun ikinci hissəsinin tikintisi davam etdiriləcəkdir.

Əhalinin elektrik, qaz və içməli su təchizatının yaxşılaşdırılması istiqamətində texniki tədbirlər görülür. İstismara yararsız olan elektrik təsərrüfatının yenilənməsi davam etdirilir. Rayonda qazlaşmanın səviyyəsi orta respublika göstəricisindən aşağıdır (92 faizə qarşı 85 faiz), ona görə də qazlaşdırılmanın sürətləndirilməsi ilə əlaqədar aidiyyatı qurumlar qarşısında məsələ qaldırılmışdır.

Əhalinin yay mövsümündə içməli su ilə vaxtında təmin olunması üçün magistral və daşıyıcı xətlərdə cari təmir işləri aparılır. Bununla yanaşı bir sıra yaşayış məntəqələrində içməli su problemləri vardır. Bu barədə "Azərsu"ASC-yə müvafiq təkliflər verilmişdir. Bütövlükdə mövcud sosial infrastrukturun operativ işləməsi üçün ictimai nəzarətin təşkili zəruridir. Bunun reallaşması üçün tərəfimizdən tədbirlər görülür.

Birinci rüb ərzində təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin işinin təşkili sahəsində tədbirlər davam etdirilmişdir.

Cənab Prezidentin tapşırıqlarına uyğun olaraq rayon əhalisinin tibbi müayinədən keçirilməsi davam etdirilir. İndiyədək 25 yaşayış məntəqəsində və 40 təşkilat və kollektivdə 56014 nəfər tibbi müayinədən keçirilmişdir. Tibbi müayinə rayonun 104 yaşayış məntəqəsinin hamısını əhatə edəcəkdir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-cı ili "İslam Həmrəyliyi ili" elan etmişdir. Rayonda bu sahədə qarşıya qoyulmuş vəzifələri həyata keçirmək üçün müvafiq Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planında nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üçün ardıcıl iş aparılır. Dini durum sabitdir.

2017-ci ilin birinci rübündə rayon icra hakimiyyəti aparatında vətəndaşların müraciətlərinə baxılması, şifahi qəbulların təşkili, yerlərdə səyyar qəbul-görüşlərin keçirilməsi sahəsində qarşımıza qoyulmuş vəzifələr əsasən yerinə yetirilmişdir.

2017-ci ilin birinci rübündə RİH başçısı aparatına 184 vətəndaş müraciəti daxil olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 85 ədəd azdır. RİH başçısı tərəfindən 362 nəfər qəbul edilmişdir, şifahi qəbula gələnlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 119 nəfər azalmışdır . Bu müraciətlərin əksəriyyəti torpaq, mənzil, əmək və əhalinin sosial müdafiəsi, kənd təsərrüfatı, ailə və məişət problemləri tələbi barədədir. Hər bir müraciətə həssaslıqla yanaşılmış və hüquqi cavab verilmişdir.

Birinci rübdə yaşayış məntəqərində 9 səyyar qəbul-görüş keçirilmiş və bu görüşlərdə yerli sakinlər tərəfindən 84 təklif səslənmişdir. Qaldırılmış məsələlərdən 36-sı artıq həllini tapmış, 15-i hazırda icra olunmaqdadır, 8-i barədə aidiyyatı üzrə məsələ qaldırılmış, 23-ü barədə vətəndaşlara hüquqi izahatlar verilmişdir.

Nazirlər Kabnetinin iclasında cənab Prezidentin qarşıya qoyduğu vəzifələr bizim üçün müfəssəl fəaliyyət proqramıdır. Hər birimiz cənab Prezidentin tapşırıqlarının icrası ilə əlaqədar səfərbər olmalı və üzərimizə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün səylərimizi daha da artırmalıyıq.

Azərbaycan dövləti və xalqı naminə gördüyü misilsiz işlərə, rayonumuza göstərdiyi diqqət və qayğıya görə Zati-aliləri cənab Prezidentə dərin minnətdarlığımı bildirirəm və əmin edirəm ki, Tovuz rayonunda onun hər bir tapşırıq və tövsiyələri bundan sonra da böyük məsuliyyət hissi ilə icra ediləcəkdir.

* * *

Məruzə ətrafında müzakirələr olmuşdur. Rayon Kənd Təsərrüfatı idarəsinin rəisi Rəhman Qasımov, Dondar Quşçu bələdiyyəsinin sədri Kəmalə Abdullayeva, Aşağı Quşçudan sahibkar Teymur Axundov çıxış etmişlər və görülən işləri müsbət qiymətləndirmişlər.

***"Tovuz"***

1-1_tovuz.qxd 19.04.2017 16:46 Page 4



# Mirsalam həmişə ürəklərdədir

## Şəhidin məzarını ziyarət etdilər




Aprelin 11-də Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və ictimaiyyət nümayəndələri Bayramlı kəndində aprel şəhidi Mirsalam Təvəkkül oğlu Cəfərovun kənd qəbiristanlığındakı məzarını ziyarət etdilər, başdaşı önünə tər çiçəklər düzdülər.

Daha sonra icra başçısı şəhidin ailəsinə baş çəkdi, ailənin qayğıları ilə maraqlandı və dövlətimizin şəhid ailələrinə daim diqqət göstərdiyini bildirdi.

Şəhidin atası Təvəkkül Cəfərov göstərilən qayğıya görə ölkəmizin başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə minnətdarlıq etdi.

*"Tovuz"*

## Aprel şəhidi yad olundu



***Heydər Əliyev mərkəzində aprel şəhidi Mirsalam Cəfərovun xatirəsinə həsr olunmuş tədbir keçirilmişdi. Rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbiri rayon icra hakimiyyəti başçısının müavini Təranə Bayramova açaraq şəhidin ömür yolu haqqında məlumat verdi.***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Tovuz rayon şöbəsinin rəisi Elməddin Cəfərov, Müharibə və Əmək Veteranları rayon şurasının sədri Mayıl Hümbətov, ehtiyyatda olan zabit Nazim Quliyev, Bayramlı kənd tam orta məktəbin direktoru Zülfüqar Mustafayev Azaflı kənd tam orta məktəbin XI sinif şagirdi Ruzi Hüseynov, çıxış edərək Mirsalam Cəfərovun həyat və döyüş yolundan danışdılar.

Şəhidin atası Təvəkkül Cəfərov dedi:

- Oğlum ana Vətənimizi, bizləri qorumaq üçün doğulmuşdu və bu yolda da şəhid oldu. Mən də bu gün orduya getməyə hazıram.

Təki Vətən sağ olsun!

Tədbirin sonunda şəhidin həyatından bəhs edən video-çarx nümayiş etdirildi.

*"Tovuz"*

***Cəbhədə 4 gün davam edən və "Aprel döyüşləri" adını almış hadisələr 2016-cı ildə Azərbaycan xalqının ordumuza qarşı olan fikirlərində böyük bir ruh yüksəkliyi yaratdı. Hadisələrdən bir il keçməsinə baxmayaraq, bu hadisələr Azərbaycanın hərbi-siyasi dövlətçiliyini, gələcək milli müstəqilliyini müəyyənləşdirəcək tarix oldu. Məhz o günlər Azərbaycan xalqının, dövlətinin necə güclü olduğunu, lazım olarsa cənab Ali Baş Komandanın bir döyüş əmri ilə necə birləşəcəyini göstərdi. Sirr deyil ki, nə qədər gənclərimiz könüllü olaraq hərbi xidmətə daxil olmaq üçün orduya yazılmaq istədi.***

## Ən uca zirvə: Şəhidlik!

Aprel hadisələri, aprel döyüşləri şanlı tarix oldu və Azərbaycanın qürurlu tarixinə, yaddaşına yazıldı. 20 ildən çox idi ki, ermənilər işğal etdikləri torpaqlarımızda yarılmaz bir müdafiə xətti, Ohanyan xəttinin olduğunu iddia edirdi və bununla öyün-ürdülər. Aprel döyüşləri öncə Ohanyan xəttinin ordumuz üçün ümumiyyətlə maneə olmadığını ortaya çıxartdı və düşmən anladı ki, Azərbaycan əsgərinin qarşısını heç bir xətt, sədd kəsə bilməz. Ən əsası isə, illərdir xalqın sınmış qürurunu bərpa etdi.

Ali Baş Komandan: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır" ifadəsi ilə sübut etdi ki, bu tarix bizim üçün çox dəyərli və vacibdir. O dərsliyi oxuyaraq böyüyən, yetişən gənc nəsil yaxın keçmişi biləcək və bu şücaəti özündə formalaşdıracaqdır. Buna əminəm. Çünki Azərbaycan dövləti şəhidini qürurla anır və şəhid adını uca zirvə adlandırır. Şəhidləriylə fəxr edən və qanları yerdə qalmayacaq deyə yetişən, hər qarış torpağını geri alacaq, Ali baş komandanın döyüş əmrini gözləyən və buna hazır olan gənclik olub və yetişməkdədir. Azərbaycanın I vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən aprel döyüşlərində şücaət göstərən zabit-gizir heyəti ilə görüşü, Heydər Əliyev Fondunun həmin şəxslərin sosial problemlərinin həllindəki əvəzsiz rolu, onlara yenidən sosial həyat qazandırmaq niyyəti, bugün Azərbaycan dövlətinin döyüşlərin iştirakçısı olmuş insanlara verdiyi önəmin ən bariz nümunəsidir. Döyüşlərdə iştirak edən, bugün ön cəbhədə xidmət edən hərbi qulluqçularımız üçün ən böyük ruh yüksəkliyidir ki, sabah hər hansısa yaranmış kiçik problemdə o öz arxasında Azərbaycan dövlətinin dəstəyini hər zaman hiss edəcəkdir. "Aprel döyüşləri" bizə bir daha tarixi xatırlatdı. Ordumuzda olan fərqi, daha doğ-



rusu gedən inkişafı göz önünə gətirdi.

Biz Aprel hadisələrində nə qədər güclü olduğumuzu gördük, güclü orduya sahib olduğumuzu gördük, hər an əlimizə silah alaraq vətənin keşiyində durmağa hazır olan gənclərimizi gördük və onlarla fəxr etdik.

Müharibə şəhidsiz olmur. Aprel döyüşləri zamanı bizim də itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid oldular, ömürlərini qurban verdilər. Övladını itirmək hər bir valideyn üçün ən böyük faciədir. Heç bir xalq istəməz ki, müharibə olsun. Heç bir ana istəməz ki, oğul itirsin.

Aprel döyüşlərində qəhrəmancasına həlak olanlardan biri də həmyerlimiz Bayramlı kənd sakini Mirsalam Cəfərov olmuşdur.

Cəfərov Mirsalam Təvəkkül oğlu 1994-cü il aprelin 7 də Tovuz rayonunun Bayramlı kəndində anadan olmuşdur. 2001-ci ildə şəhid Elşad Orucov adına Bayramlı kənd orta məktəbinin I sinfinə getmiş, 2011-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. Oxuduğu müddət ərzində hər zaman deyərmiş ki, Şuşaya bayrağı mən sancacağam. Sanki bu cəsur gənc öz taleyindən xəbərdar imiş. Mirsalam Cəfərov 2011-ci ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakultəsinə feldşer ixtisası üzrə qəbul olmuş və oranı bitirdikdən sonra, 2013-cü ildə universitetdən Beyləqan rayonunun "N" saylı hərbi hissəsinə xidmətə göndərilmişdir. Bir il işlədikdən sonra öz istəyi ilə xüsusi təyinatlı hərbi hissəyə keçmişdir. Beyləqan "N" saylı hərbi hissədən də Cəlilabad şəhərindəki Göytəpədə yerləşən 3 aylıq hərbi kursu keçəndən sonra həmin hərbi kursda fərqləndiyinə görə Bakı şəhərinə getmiş 2015-ci ilin mart ayında Türkiyəyə getmiş və orda "Kurs Belgesi" kursunu müvəffəqiyyətlə başa vurmuşdur. Həmin kursu da bitirdikdən sonra Mirsalam Cəfərov Türkiyədən qayı-daraq yenə Bakıda yerləşən "N" saylı hərbi hissədə qulluğunu davam etdirmişdir. 2016-cı ilin aprel döyüşləri başlayarkən Mirsalam Cəfərov yenidən Müdafiə Nazirliyinin əmrinə əsasən Goranboy rayonunda döyüş xidməti keçmişdir. O, Talış kəndinin alınması uğrunda gedən döyüşlərdə aprel ayının 3-də qəhrəmancasına həlak olmuşdur.

Şəhidlər ölmür. Onlar ölümləri ilə ölümsüzlük qazanırlar.

Bu gün dərddən əyilsə də, şəhid övladının yarımçıq qalmış ömrünə, arzularına yansa da məğrur dayanmağı bacaran mərd analarımız var olduqca bu vətənin Cavanşirləri, Babəkləri tükənməyəcək. Bu gün şəhidlik zirvəsinə ucalaraq ölümsüzlüyə qovuşan Mirsalamın döyüş yolu gənclərimizə həmişə nümunə olacaq.

Biz inanırıq ki, bir gün o anaların gözlərində olan yaş "övladımın qanı yerdə qalmadı" ifadəsi ilə əvəzlənəcəkdir. Və bu inam çox güclü amildir.

Hər gün bütün şəhidlərimizin qanının yerdə qalmaması uğrunda Qarabağda gedən döyüşlərdə bir addım daha irəliləyirik. Qələbə tariximiz uzaqda deyil.

İnanırıq ki, işğal altındakı torpaqlarımız tezliklə azad ediləcək, üçrəngli bayrağımız Xankəndində, Şuşada, digər şəhər və rayonlarımızda dalğalanacaq".

Aprel döyüşlərində, Vətənin qarış torpağı uğrunda canından keçən şəhidlərimizin ruhu qarşısında baş əyir, valideynlərinə möhkəm səbr arzu edirik.

Ruhun şad olsun Mirsalam!

***Aytən Tağıyeva,***
***Heydər Əliyev Mərkəzinin direktoru***

1-1_tovuz.qxd 19.04.2017 16:46 Page 5



# Amalım həm savadlı, həm də vətənpərvər gənclər yetişdirməkdir

**"Təhsil millətin gələcəyidir". Ulu öndərin bu kəlamı bir müəllim kimi mənim də amalıma çevrilmişdir. Doğrudan da hər bir ölkənin gələcək inkişafı, tərəqqisi təhsilin səviyyəsi müəyyən olunur. Bu gün təhsil sistemimizdə uğurla həyata keçirilən islahat biz müəllimlərə nəyi və necə öyrətməyi öyrədir. Mənim də əsas məqsədim şagirdlərimə öyrənməyin düzgün yollarını öyrətmək, hər təfəkkürə malik, vətənpərvər şəxsiyyət yetişdirməkdir.**



Bunları nəzərə alaraq dərslərimi təhsil islahatları tələbləri səviyyəsində, şagirdləri daha çox düşündürən, onların fəallığını təmin edən interaktiv təlim metodları əsasında qurmağa çalışıram. Çalışıram ki, dərsin maraqlı olmaqla yanaşı düşündürücü, bəzən təəccübləndirici və heyrətləndirici olsun. Cansıxıcı, bezdirici olmasın. Dərsin sona çatmasına şagirdlər heyfslənsinlər.

Bunları necə həyata keçirirəm?

- Birinci növbədə dərslərimi elmi-pedaqoji baxımdan təlimata uyğun tərtib edilmiş kabinədə keçirirəm.

- Dərsim birinci saat olduqda dərsimi şagirdlərə Dövlət himni oxutdurmaqla başlayıram. Bu isə şagirdlərdə vətənpərvərlik hissini daha da yüksəldir.

-Dərslərimdə dərsin məzmununa uyğun fəal təlim forma və üsullarını seçirəm. Nəyi, nə vaxt və necə edəcəyimi əvvəlcədən müəyyən edirəm. Qarşıma öyrənməyi öyrətmək, inkişaf etdirmək, tərbiyə etmək məqsədini qoyuram. Belə qurulan dərslərdə şagirdlər sərbəst düşünə bilir, öz fikrini ifadə edir və bu fikri müdafiə etməyi bacarır, əməkdaşlıq edir. Müstəqil işləmək vərdişlərinə yiyələnirlər.

-Şagirdlərdə özünə inam hissini artırmaq üçün özünü qiymətləndirmədən istifadə edirəm.

-Şagirdlərə standart olmayan həll üsullarının tapılmasını təklif edirəm, bununla da onlarda yaradıcılıq bacarıqlarını formalaşdırıram.

-Qazanılmış biliklərin səviyyəsini müəyyən etmək üçün test yoxlamaları keçirirəm.

-İKT-nın imkanlarından geniş istifadə edirəm. Belə dərslər şagirdlərin həm maraqlarına səbəb olur, həm də şagirdlərin dərsi daha yaxşı qavramasına və yadda saxlamasına zəmin yaradır.

-Fənndaxili və fənnlərarası inteqrasiyanın təmin edilməsi dərsləri daha maraqlı edir, şagirdlərdə idrakı fəallığı artırır, onları müstəqil tədqiqatçılığa meylləndirir.

-Həndəsənin sterometriya bölməsində fəza təsəvvürü yaratmaq üçün əksər təsvirlərin, istər teoremlərin isbatındakı şəkillərin, istərsə də məsələ həllindəki şəkillərin şagirdlərin köməyi ilə düzəldilmiş modellərindən istifadə edirəm.

-Vətənpərvərlik ruhunda çalışmalara diqqət yetirirəm. İşğal altında olan rayonlarımızın ərazisi, əhalisi, işğal nəticəsində dəyən maddi ziyanın məbləği, Azərbaycanın bütün sahələrində sürətli inkişafı ilə əlaqədar məsələlər tərtib edir və həll etdirirəm. Beləliklə, şagirdlərdə vətənə, torpağa məhəbbət, düşmənə isə nifrət hissi aşılayıram.

-Şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirmək üçün apardığım dərnək məşğələlərində əyləncəli və maraqlı mövzular seçirəm.

-Valideynlərlə iş mənim fəaliyyətimdə xüsusi yer tutur. Hər bir riyaziyyat dərsində heç olmasa bir valideyn iştirak edir və dərsin gedişini izləyir. Bu həm müəllim, həm də şagirdlərin məsuliyyətini artırır. Vaxtaşırı valideynlərin iştirakı ilə şagirdlərin əldə etdikləri biliklərin səviyyəsini yoxlamaq üçün nəzəri yoxlamalar və sınaq testləri keçirirəm. Bunun nəticəsini valideynlər özləri də qiymətləndirir.

-Riyaziyyat fənninə marağı artırmaq üçün məktəbin paralel sinifləri arasında bilik yarışmaları keçirirəm.

-İstedadlı şagirdlərin üzə çıxarılması, onların inkişafı üçün lazımı şəraitin yaradılması vacib məsələdir. Şagirdlərin intellektual səviyyələrinin artırılması üçün məktəbdə rəhbərlik etdiyim "Kiçik Akademiyanın" gücündən istifadə edirəm.

-Sinif rəhbəri kimi şagirdlərin asudə vaxtlarını səmərəli keçirmək üçün onları H.Əliyev mərkəzinə, Tarix diyarşünaslıq muzeyinə və digər yerlərə ekskursiyaya aparıram.

Hesab edirəm ki, müəllim yeniliklərə, innovasiyalarla işləyərsə, onun bəşəriyyətə layiqli şəxsiyyət hazırlamaq imkanı daha çox olar.

Müəllimlik nə qədər çətin olsa da, şərəfli bir peşədir. Mən 38 ildir ki, riyaziyyat müəllimi işləyirəm. Öz ixtisasımı çox sevirəm. Riyaziyyat mənim varlığım, həyata baxışımdır.

***Fazil Məhərrəmov,***
***Əməkdar Müəllim,***
***"İlin ən yaxşı müəllimi" müsabiqəsinin ikiqat qalibi***

# Abituriyentlərdə imtahan öncəsi stress sonradan suisidə çevrilə bilər

***İmtahanlar bəzi abituriyentlərdə stressin yaranmasına gətirib çıxarır və yaranmış stress vəziyyəti şagirdlərin müvəffəqiyyət göstəricisini aşağı salır.Əslində qayğının müəyyən səviyyədə olması təbii haldır , hətta imtahanın uğurlu olmasına belə kömək edir.Belə ki , bu orta səviyyədə olan qayğı şagirdləri motivə edir.Lakin həddindən artıq olan narahatlıq abituriyentlərin imtahanda aşağı nəticə göstərməsinə səbəb olur.***

Yüksək İmtahan stressi həm psixoloji, həm də fizioloji olaraq mənfi nəticələrə gətirib çıxarır. Bu, hər bir şəxsdə fərqli olur. Ümumi halda isə aşağıdakı kimidir: Fiziki olaraq tərləmə,yorğunluq,qarın ağrısı, baş ağrısı, yuxusuzluq, iştahsızlıq (həddən artıq iştah), baş fırlanması, ürək bulantısı, qusma, əzələlərdə gərginlik hissi və dişləri sıxma kimi hallarla özünü göstərir. Bununla yanaşı, unutqanlıq, diqqət dağınıqlığı, oxuduğunu anlaya bilməmək, daim əsəbi və gərgin olma, özünə qapanma kimi psixoloji hallar da müşayət olunur. Qayğılı düşüncələr nəticəsində abituriyentdə özünüqiymətləndirmə aşağı düşür və özünə olan güvəni azalır.

Bəzən abituriyentlər imtahana hazırlaşdıqları ərəfədə əyləncədən və idmandan uzaq dururlar, bunları vaxt itkisi sayırlar.Əslində isə şagirdlər arabir öz əyləncələrinə vaxt ayırmalıdırlar.Bu beynin dincəlməsinə yardım edir. Nəticədə yeni biliklərin öyrənilməsi asanlaşır.Əgər siz əyləncə və dərs oxumaq vaxtını düzgün ayıra bilmirsinizsə, günlük qrafikinizi qurun. Bu sizə günü düzgün qiymətləndirməyə kömək edəcək. Bu zaman dərs hazırlamaq üçün uğurlu vaxtı təyin etmək lazımdır. Öyrənərkən 5 duyğu üzvünüzdən istifadə daha asan öyrənmənizlə nəticələnəcəkdir.

İmtahan ərəfəsində qidalanmanıza da diqqət edin, bəzi hallarda stress iştahsızlıq ya da həddindən artıq iştah yarada bilər.Bəslənmə nizamınızda dəyişiklik etmək məqsədə uyğun deyildir. İmtahan əvvəli vərdiş etmədiyiniz yeməkləri yeməyin.İmtahandan əvvəlki gün bir şey yemək istəməsəniz də mədənizi boş buraxmayın. Yüngül də olsa bir şey yeyin.

İmtahandan əvvəlki gün yatmaqda çətinlik çəkə bilərsiniz, lakin sırf imtahan olacaq deyə daha erkən yatmağa çalışmayın, bu sizi dahada narahat edə bilər. Normalda neçə saat yuxu sizə kifayət edirsə, o qədər yatın.Əgər yuxuya gedə bilmirsinizsə imtahanın yaxşı olacağını xəyalınızda canlandırın. Müsbət düşünmək qayğının azalması üçün çox əhəmiyyətlidir.

İmtahan yeri bəlli olduğu zaman gedib oranı görmək sizi sakitləşdirə bilər.İmtahan günü keçiriləcəyi yerə nə çox erkən gedin,nə də gecikin. İmtahan sahəsinə çox erkən gedərək imtahan haqqında digər abituriyentlərlə danışmaq, şərhlər etmək, təxminlər icra etmək qayğını artıra bilər, bundan qaçınmaq lazımdır. İmtahan otağına getdiyiniz zaman yerinizdə rahat olmağa çalışın.Otağın aurasını mənimsəmək sizi daha da sakitləşdirəcəkdir.

İmtahan zamanı, imtahandan əvvəl üçün peşmançılıq duymaq,imtahan sonrasına görə üzülmək sizə heç bir fayda verməyəcək, əksinə, diqqətinizin dağılmasına gətirəcəkdir. Buna görə imtahan vaxtı yalnız və yalnız suallara cavablandırmağa çalışın. Cavabladığınız hər bir sualın sizi hədəfinizə bir addım daha yaxınlaşdırdığını düşünün. Hər şeyi unutduğunuzu hiss etsəniz, imtahana bir müddət ara verib özünüzə zaman qazanın. Fokuslana bilmək üçün kağızın küncünə fərdi məlumatlarınızı yaza bilərsiniz. Təkrar diqqətinizi topladığınızda suallara geri dönün.



İmtahanın dünyanın sonu olmadığını unutmayın! Həyat boyu giriləcək bir çox imtahan var və heç bir imtahan dünyanın sonu deyil.

Hörmətli validenylər! Əgər övladınız stress nəticəsində imtahanda zəif nəticə göstəribsə, onu danlamayın, ürək dirək verin və deyin ki, bu, həyatın sonu deyil. Əks təqdirdə stress onu özünə qəsdə də çatdıra bilər.

# Orxan Paşa (Məhərrəm Qasımlı) yaradıcılığı: Ozan-aşıq ədəbiyyatında

**Ədəbiyyat həyat fəlsəfəsinin, ilahi və insani duyğuların cəmləşdiyi məkandı. İnsan özünün, dünya və ilahi varlığın dərkini burada anlayır. Ədəbiyyat sahilsiz, sərhədsiz elmdi. Onun dərinliyinə vardıqca əzəmətini dərk edirik. Hər kəsi öz ağuşuna alaraq, çox az adamı buradan kamil çıxarır. Bədii aləm insan ömrünü uzadan, sağlam edən ilahi nemətdi. Çünki sözü və ona sığal çəkməyi bizlərə uca Yaradan qismət edib. Bədii ədəbiyyatla tanış olmayan, oxuyub sevməyən insan kasıb və məğlubdu. O ürəkdən gələn elmdi. Ürəklə qidalanır və oradan bulaq kimi süzülür. Bədii aləm ürəklə yaşayır, dayanması ilə də sona yetir. Küləyin səsini, suyun şırıltısını, ildırımın çaxmasını və s. təbiət gözəlliklərini bizə sevdirən ədəbiyyatdı.**



Şairlik bir başqa aləmdir. Sonu bilinməyən ümmandır. Daxilində böyük söz xəzinəsi olan insandır. Şairlərə ilahidən bir qüvvə verilir. Bu qüvvə onlara ilham, həvəs verərək ümidlər yaradır. Şair olmaq asan deyil. Bu sənət böyük sənətdir. Hər bir insan şair ola bilməz! Mən bir oxucu kimi şairləri sonsuz bir çoxluq kimi görürəm. Hansı ki, o çoxluq tükənmir. Şairdə də bunu belə təsəvvür edirəm. Onlar yazdıqca yaradırlar. Şairi böyük bir rəssama bənzədirəm. Rəssam hansısa bir gözəlliyi görür və onu cansız təsvir edir. Şair gözəlliyi görür və onu sözlə canlandırır. Gözlə görünən gözəllik, sözlə daha ifadəli olur, daha cəlbedici xarakter daşıyır. Çünki onu bir şair canlandırır. Biz düşünürük amma qələmə heç nə almırıq. Ancaq şair düşünür və bunu qələmə alır. Şairi bir müəllimədə bənzədirəm. Çünki qarşısındakı şagirdi, tələbəni müəllimdən daha yaxşı heç kim tanıya bilməz. Şairlikdə belədir. Əgər insanda şairlik ruhu varsa ətraf mühiti ondan yaxşı heç kim dərk edib qələmə ala bilməz. Onun daxilini, xaricini yalnız şair ruhu canlandıra bilər.

Poeziya insanı, təbiəti, ilahi varlığı, aləmi insana sevdirən ədəbiyyatın tərkib hissəsidi. Bu sevgi hardan qaynaqlanır? Poeziya öz qüdrətini torpaqdan, qandanmı alır? Bu suallar hələ də mübahizə obyektidi. Danılmaz həqiqətdir ki, dağlar, qayalar, çaylar və s. təbiət gözəllikləri poeziyanın yaranma mənbəyidi. Bunlar şairə ilham verir. Suyun səsi, güllərin xoş ətiri, dağların uca zirvələri və s. kimi duyğular insanı yazmağa səsləyir.

Başında qartallar uçan, bulaqları qaynayan, buludlara söykənən uca zirvəli Tovuz mahalı bədii aləmdə öz yeri ilə seçilir. Bu bulaqdan su içən, gülləri qoxuyan, dağlarında gəzən insanlar necə söz qoşmasın. Aşıqların bulaqlar başında billur səsi, dastanları şairlərin ilham qaynağı olmuş və onları poeziya aləmində yazıb-yaratmağa vadar etmişdir. Tovuz rayonu sözün, ələlxüsus ozan-aşıq sənətinin yurdu, məskəni və yaşadığı bir coğrafiyadır. Burada bir sıra tanınmış aşıq və şairlər yetişmiş və xalq içərisində sevilərək xalq sənətkarlarına çevrilmişlər. Aşıq və şairlərin yaradıcılığı dövrünün bütün xüsusiyyətlərini özündə yaşatdığı üçün onların sənətləri müasir dövrdən götürülüb tədqiq edildikdə əhəmiyyəti məlum olur. Bu baxımdan aşıq və şairlərin yaradıcılığı və həyatları elm insanları ilə yanaşı insanşünaslıq üçün də vacibdir. Tovuzda isə belə insanlar çoxluq təşkil edir.

Tovuzun ötən əsrin ortalarından başlanan fəal ədəbii mühiti olduqca rəngarəng inkişaf etmiş və gözəl qələm ustadları yetişmişdir. Həmin mühitin təsirində olan insanlar çoxlu əsərlər yazaraq Tovuz ədəbii mühitini daha da zənginləşdiriblər.

Tovuz deyilərkən gözlərimiz önündə şeir və ozan sənəti canlanır. Bu yazımızda Professor Məhərrəm Qasımlının yaradıcılığı haqqında söz açacayıq. Professor Məhərrəm Qasımlı yaradıcılıqda Orxan Paşa təxəllüsü ilə oxucularla görüşür. "Yağmur qoxusu" adlı şeirlər kitabı ilə oxucuları ilə görüşən Orxan Paşa yaradıcılığı diqqət cəlb edir. Şeirləri vətənə, millətə, saf məhəbbətə, ülvi duyğulara köklənib. Şairin "Ürəyimin səcdəgahı" şeirinə nəzər yetirəyin:

*Azərbaycan – ulu Vətən,*
*Anamsan, dünyamsan mənim.*
*Dil açıb ruhumda ötən,*
*Laylamsan, laylamsan mənim.*

*Gözəllərin çiçək kimi,*
*İgidlərin şimşək kimi.*
*Vətən, sənə qurban olum-*
*Sinəmdəsən ürək kimi.*

Bu Vətən sevgisi öz doğma kəndindən rayona, oradan ölkəsinə və bütün Türk dünyasına yönəlir. Şeirlərində türkçülüyə böyük yer verən Orxan Paşa şeirlərinin birində qələmə alır:

***Sökülməyən bənd-bərələr sökülər,***
***Dəli çaylar yatağından çəkilər,***
***Dağlar-daşlar əriyib də tökülər,***
***Türklüyümüz yenilməz!***

Şairin kitabının elə ilk hissəsi "Sənə sözüm var" başlığında Vətən şeirləri cəmləşmişdir. Şairin "Şuşanın "Xarı bülbülü" şeiridə diqqət cəlb edir.

***Ay ürəyim, gözüm gülü,***
***Nədən oldu hüzün gülü?***
***Bizə doğma uzaqlardan***
***Boylanırsan üzüntülü.***
***Sənsiz haçan üzüm gülür?***
***Şuşanın "Xarı bülbülü".***

Orxan Paşa yaradıcılığı ilə bağlı tanınmış alim filologiya üzrə elmlər doktoru Salidə Şərifova "525-ci" qəzetində çap olunan "Yağmur qoxulu şeirlərin izi ilə..." adlı məqaləsində yazır: "Orxan Paşanın əsərlərindəki bədii fikrin tam anlanması üçün oxucu tarix, dilçilik, din və sair sosial elmlərdən xəbərdar olmalıdır". Haqlı olaraq alim S.Şərifova Orxan Paşa yaradıcılığına müraciət edən oxucuların yüksək intelektinin mövcud olmasını vurğulayır.

Jurnalist İradə Sarıyeva Orxan Paşa yaradıcılığı haqqında "Bakı-Xəbər" qəzetində çap olunan "Yağmur ətirli sözlər boğçası..." adlı məqaləsində yazır: "Orxan Paşanın şeirlərini oxuyakən onların gözəlliynə, duyğusallığına, hərəkətli ifadəsinə heyran oluram. Nələr yoxdur onun şeirlərində-ana, Vətən, torpaq, uşaqlıq, gənclik, ayrılıqlar, hicran ağrısı, bütövlük, xalqa sevgi".

Filologiya üzrə fəlsəfə doktoru Könül Aydın Nəhmətin "Mədəniyyət" qəzetində "Məhərrəm Qasımlının "Yağmur qoxusu" şeir kitabının üzərində düşüncələr" adlı məqaləsində yazır: "Alim kimi tanıdığım Məhərrəm Qasımlıyla şair kimi qarşılaşdığım an bir həsrət qoxusu duydum nəfəsindən:

***Yerində saymaqmış, ay ömrüm, günüm,***
***Nə ki yol gəlmişik indiyə qədər.***

Orxan Paşa adı ilə şair olaraq qarşıma çıxan illərlə tanıdığım Məhərrəm müəllim bir eşq mütəfəkkirinə çevrildi nəzərimdə. Mən də bu eşq dastanını oxuyan oxucu..."

Biz Məhərrəm müəllimin yaradıcılığı deyərkən onu poeziya hüdudları çərçivəsində məhdudlaşdırmağımız düzgün deyildir. Professor Məhərrəm Qasımlının Aşıq sənətinə dair sanballı elmi məqalələri və kitabları təqdirə layiqdir. Elm ictimaiyyəti tərəfindən müfəssəl əsərlər kimi qiymətləndirilir məqalə və yazıları. Danılmaz həqiqətdir ki, Aşıq sənəti əsrlərlə unikal əsərlərdə cəmlənməyib. Xüsusi ilə ötən əsrdən başlaraq Aşıq sənəti ilə bağlı tədqiqatlar aparılmış və qalaq-qalaq əsərlər çap edilib. Bunların içərisində xüsusi yer tutan əsərlərdən biri də "Ozan-aşıq sənəti" fundamental əsəridir. Professor Məhərrəm Qasımlının "Ozan-aşıq sənəti" fundamental əsəri Aşıq sənətinin tədqiqi baxımından təqdirə layiq əsərdir. Sənətin geniş məzmunlu problemləri araşdırılmış və elm auditoriyasına təqdim edilibdir. Aşıqlığın tarixi ibtidaidən müasirliyə doğru öyrənilmiş, sənətin coğrafiyası müfəssəl təşkil olunmuşdur. Aşıq sənətinin elmi əsaslarla əbədiləşməsi baxımından professor Məhərrəm Qasımlının əsəri dövrünün zəruri əsərlərindən hesab etsək heç də yanılmarıq. Dövri mətbuatda çox az-az Aşıq sənəti haqqında və onun tarixi barəsində araşdırma yönümlü yazılar görürük. Bu, aşıq sevənləri əlbəttə üzür. Ancaq son dövrlərdə bu problem aradan qalxmaq üzrədir. Professor Məhərrəm Qasımlı, professor Qəzənfər Paşayev, Aşıqlar Birliyinin katibi Musa Nəbioğlu, jurnalist İradə Sarıyeva, aşıq Gülara Azaflı və başqa şəxslərin timsalında bu boşluq doldurulmaq üzrədir.

***Mahmud Əyyub***

1-1_tovuz.qxd 19.04.2017 16:46 Page 7





*Günay Həsənli*

# AXTARIR

Dənizə atılan daşa dönmüşəm,
Bir ömür axtarsan tapa bilməzsən.
Tapsan da sən məni neynəyəcəksən?
Mən özüm-özümü tapa bilmirəm.
Dilim qıfıl vurub lal hisslərimə
Bir "açar" sözünü tapa bilmirəm.
Tapsan da sən məni neynəyəcəksən?
Dili lal,
Gözü kor,
Ağılı dəm-dəm.
Söylə beləsini neynəyəcəksən?
Dərddən manqurtlaşıb,
Xəyalı hərdəm.
Elə hey itirir,
Axtarır hərdən.
O nəyi axtarır, niyə axtarır?
O kimi axtarır, nədən axtarır?
Əbədi dünyaya gedən axtarır
Bir tabut salamı göndərmək üçün.
Söylə beləsini neynəyəcəksən?
Yerin göbəyini tapıb kəsəcək,
Vaxtsız anasından ayırmaq üçün.
Qarınqulu olub ürək yeyəcək,
Ürəyinin dərdi azdı deyəsən
Dərdinin qarnını doyurmaq üçün.
O ki, dərdlərinin yurd anasıdı,
İstəməz balası acından ölə.
Axtarır, axtarır,
O dərd axtarır,
Dərdinin qarnını doyurmaq üçün.
Söylə beləsini neynəyəcəksən?
O ki sevincini yellərə verib.
Bəzəkli-düzəkli dərdi axtarır,
Dərdinin gözünü doyurmaq üçün.

***15.01.2015***

# BOĞULURAM

Aman Allah boğuluram,
Hər kəsə həyat verən, bu hava boğur məni.
Gündə min kəs boğulub,
Gündə min yol ölürəm.
Fani dünya qəsdinə analar doğur məni.
Saçımdan dəstə-dəstə
Yolub, kəndir hörürəm.
Salıram boğazıma
Ayaq yerdən üzülür, havada boğur məni.
Qəmim yaman çoxalıb,
Yığılıb üst-üstünə.
Toz basıb ürəyimi
Tozunu yumaq üçün buludlar yağır məni.
İçimdəki ocağın tüstüsü boğur məni.
Hər gün bir az boğulub, ölümə uçunuram.
Cəhənnəm yolundayam, yolumdan çağır məni.
Sevincin teştinə sal, bir azca yoğur məni.

***01.11.2014***

# YAĞIŞ YAĞIR ÜSTÜMƏ

Yağış yağır üstümə,
Bu yağan yağışdımı?
Bəlkə günahlarımdı
Səmadan axıb gəlir.
Bəlkə, bəlkə...
Edəcəyim günahı
Əvvəlcədən görüb o,
Yumaq üçün tələsir.
Bu yağan yağışdımı?
Gözyaşımdı deyəsən.
Bir zaman buxar olub
Çəkilmişdi göylərə.
Göz yaşı axıtdığım
O dərdli günlərimi
Xatırlatmağa gəlir.
Damcısını döndərib,
Kiçik köz parçasına
Qığılcıma bənd olan
Mənim heysiz cismimi
Alovlatmağa gəlir.
Yağış yağır üstümə
Hər damlası dəlib keçir bədənimi.
Güllələnən adam kimi
Çırpınıram, can verirəm.
Canı mənə Tanrı verib,
Mən yağışa can verirəm.

***10.08.2014***

# AYAĞIM BAŞIMI

Bilmirəm hardayam, hara gedirəm,
Ayağım başımı çəkib aparır.
Yollar ərşə çıxır ayağım altdan
Bir ucu göylərə çəkilib gedir.
Biri də cismimdən oğurluq edib,
Canımı ağzımdan dartıb çıxarır.
Yollar uzandıqca ömür qısalır,
Uzanan yolların yolunu kəsək.
Hərdən ilan olub çalır bu yollar,
Amansız yolların qolunu kəsək.
Əyrilir, qıvrılır, sürünüb gedir,
Əyrilər yolçusu olur bu yolun.
Əyilən yolların yolunu kəsək.
Bilmirəm hardayam, hara gedirəm,
Bir sual yaranır beynimdə bu an,
Başım bədənimi aparmalıykən
Ayağım başımı çəkib aparır.

***07.07.2014***

# DÜNYA

Söylə sənə neynəmişəm?
Mənsiz olan, mənli dünya.
Çoxlarına kef-damaqsan,
Mənə niyə qəmli, dünya?
Haqqımı yedizdirib,
Nadanları gəl az güldür!
Dəfələrlə göynətdiyin
O həminki yazıq mənəm.
Daha bəsdi, gəl göynətmə,
Birdəfəlik öldür, öldür!
Öldür məni, tezcə öldür!
Öldürməsən, gözlərimdən axan yaşı
Bir dərəyə,
Damla-damla toplayacam.
Dünya...
Səni su basacaq.
Diri-diri yandırırsan,
Yandır hələ.
Rəhmin gəlmir mənə sənin,
Mənim sənə gələcəkmi?
Mən də səni göz yaşımdan yaratdığım,
Səndən böyük bir dəryada boğacağam.
Sənlə olan bu savaşın
Qalibi mən olacağam.
Qalibi, mən olacağam!...

***24.06.2014***

# RUHUMU İNCİTMƏYİN!

Bəsdi daha düz yeridim,
Əyib, əyri yeriyəcəm.
Düzlərimdi düzdə qalan
Tərs gedəcəm, nəhs gedəcəm.
İstər didin-tökün məni,
Külüng alıb sökün məni,
Neylon sarıb bükün məni,
Kibrit çəkin bədənimə,
Yanım,yanım külə dönüm.
O külümdən qorxun mənim.
Diri-diri basırsan da
Torpağını yeyib-yeyib,
İlan kimi lağım atıb çıxacağam.
Rişxənd ilə,gülə-gülə, nifrət ilə,
Bu dünyaya oyuncaq tək baxacağam.
Hisslərim də buz bağlayıb,
Nəfəsim də...
Bircə dəfə üfləsəm dünya donar, həyat donar.
Nəfəsimi kəsmək üçün, boğmaq üçün,
Atın məni dənizlərə.
Balıq olub böyüyəcəm,
Dünyadan da böyük olub,
Bircə loxma edəcəyəm bu dünyanı.
Göydən asın ayağımdan.
Diri-diri soyun məni
Şişə taxıb cəsədimi,
Manqal üstə qoyun məni.
Cəzaların ən ağırın kəsin mənə
Nə olar ki, yalvarıram,
Yaralıdı yazıq ruhum,
Bircə onu incitməyin!
Bircə, onu incitməyin!!!

# GÖZƏLİM

Sən o qədər gözəlsən ki... Vətənim!
Vicdanımın aynasına rəsmin çəkmək istəyirəm.
Gözəlliyin ağır oldu,
Beli sındı fırçamın.
Heyranlıqdan kilidlənib,
Əli sındı fırçamın.
Kirpiyimi fırça edib,rəsmin onunla cızaram.
Bir az qanımdan süzərəm,
Bir də göz yaşı qataram.
Kirpiyimlə "qanyaş" adlı
Mənə məxsus bu boyayla
Dərdlərindən cadarlanmış
Parçalanmış ürəyimə sənin adını yazaram.
Sən o qədər gözəlsən ki...
Vicdanımın aynasına ilmə-ilmə hörüm səni.
Gözümün üstündə dayan,
Gözlərimin qapağı ol,
Həm görməyim, görüm səni.
Mənə saray lazım deyil.
Torpağından kərpic kəsim,
Həyatımın divarına hörüm səni.
Sən o qədər gözəlsən ki...
Vicdanımın aynasına səni çəkmək istəyirəm.
Qorxuram ki çat-çat olub
Tökülər ayağım altda.
Yumaq olar vicdanim,
Bükülər ayağım altda.
O rəsmini çəkmək üçün,
Həm səndən utanıram, həm də yaman qorxuram.

***13.10.2014***

# TƏRS DÖNƏCƏK BU DÜNYA

Çevirəcəm oxunu,
Tərs dönəcək bu dünya.
Enişdən başlayacaq çaylarının axarı,
Yoxuşa töküləcək.
İnsan qoca doğulub,
Körpələşib öləcək.
Məzlumu tapdalayan,
Şux olan qamətin də
Ahımdan büküləcək.
Lazımsız kağız kimi
Səni ovub bükəcəm.
Ovcumun içi boyda
Olacaqsan, a dünya.
Oynadacam əlimdə
Səni oyuncaq kimi.
Balaca top eyləyib,
Atıb-tutacam səni.
Məni illər uzunu
Atıb- tutduğun kimi.
Bəzən də atıb məni,
Tutmağı unudurdun.
Elə möhkəm dəyirdim
Yerlərin göy üzünə.
İndi atıram səni,
Yalvar, yıxıl dizimə!!!

***15.07.2014***

# İBADƏT

Əl açıb köməyi SƏN-dən istədim,
Uzandı qollarım göylərə sarı.
Beləcə il ötdü, ay keçdi, günlər yetişdi.
Yalvardım dərdimi gəl eylə yarı.
Nə əlac eylədin kor dərdlərimə?
Üstəlik belimə duz yükü vurdun.
Göz dağı eylədin həyatı mənə
Dağların gözünü mükafat kimi
Dərdimin üstünə hədiyyə qoydun.
Sənin istədiyin ibadət bumu?
Zəncirsiz, kəndirsiz çarmıx oyunu...
Burax mənim əllərimi!!!
Onlar pisliklərə alət olmadı.
Daha qaldırmaram onları sənə,
Əlsiz as, qolsuz as göyündən məni.
Sən ki, yol taparsan məni asmağa,
Sıyır bədənimdən damarlarımı,
Bağla bir-birinə lap ucundan as.
Saçımdan bir tel ayır,
Lap onun ucundan as.
Bilirəm heç səndə insaf qalmadı.

***07.12.2014***

# Daş

Daş olub tökülmüşəm,
Bu dünyanın başına.
O da döndərib mənim
Baharımı qışıma.

Vaxtsız belimi büküb,
Qara damımı söküb,
O da daşını töküb,
Mənim dərdli başıma.

Sağdan atdım ona daş,
Soldan atdım ona daş,
Çevrilib gəldi birbaş
Dəydi mənim başıma.

Daş atma, daşa dəyər,
Oxu çək, qaşa dəyər,
Min baş, bir başa dəyər,
Kül dünyanın başına.

***20.04.2014***

# Zaman

Sən məni haraya gətirdin zaman?
Namus da,qeyrət də,ar da satılır.
Hərraca qoyulub insan ürəyi
Bülbüllə yanaşı sar da satılır.

İnsanlıq adında şey qalmayıbdır,
Bəlkə orda-burda közərəni var.
İnsanlar əyilib doğru yolundan,
Bəlkə də bir neçə düzələni var.

İnsan ləyaqəti, insan qeyrəti,
Hər addım başında tapdanıb gedir.
Yerində dayanıb,dursan da sakit,
Zaman özü səni bax, məcbur edir.

İnsan öz əliylə qazır quyunu,
Qazanın özünü salır bu zaman.
Pulu olan deyir yıxılmaram mən,
Mağallaq aşanda ağlayır yaman.

Dəyirman daşı tək fırlanır zaman,
Bu gün biri qalxır, sabahsa enir.
Əhli-cahan bilir onun işini,
Bax,insanlar nə danışır,nə dinir.

Dinib neynəyəcək təlxək zamana,
Dərhal onu zaman araya qoyar.
Min kələk gətirər onun başına,
O da bu həyatdan tamamca doyar
.
Tərki-dünya olar insanın ruhu,
Bununla bir ömür bitmiş sayılar.
Bir körpə dünyaya göz açar bu vaxt,
Bu qanuna "zaman"adı qoyular.

# Hepatit xəstəliyinin təbii müalicəsi

***Qaraciyər orqanizmin "qan fabriki" olduğu üçün onu daim soyuqdan, piylənmədən, zülallı qidalardan qorumaq lazımdır. Qaraciyər insan orqanları içərisində ən güclü regenerasiya - özünü bərpa - qabiliyyətinə malik olan orqandır. Hər bir zədə zamanı qaraciyər toxuması onu tezliklə aradan qaldıra və məhv olmuş hepatositləri tezliklə yeniləri ilə əvəzləyə bilir. Bərpa dövründə qaraciyərin sağlam hüceyrələri sıradan çıxmış hüceyrələrin də yükünü öz üzərinə götürür. Hepatit B ilə yoluxan yaşlı insanların çoxunda infeksiya kəskin başlayır və əsasən tam sağalma ilə yekunlaşır. Amma yeni doğulmuş və uşaqlarda vəziyyət fərqlidir. Belə ki, doğuş zamanı və ya 1-5 yaş arasında HBV ilə yoluxmuş uşaqlarda xəstəlik xroniki xarakter alır. Xroniki infeksiya illər ərzində aşkarlanmadan keçə bilir. Belə hallarda yalnız ciddi qaraciyər xəstəliyi yaranan zaman aparılan müayinələr HBV müəyyən edir. Hepatit B elmə məlum olan 6 virus hepatitindən biridir.***

Digər Hepatit növləri bunlardır: hepatit A, C, D, E və G. Bunlar bir-birindən törətdiyi xəstəliyin kəskinliyi və yayılma yolları ilə fərqlənirlər. Əlamətlər Hepatit B ilə yoluxmuş uşaqların əksəriyyətində heç bir əlamət və şikayətlər qeyd edilmir. Bəzi yaşlılarda da belə olur. Əlamətlər adətən yoluxmadan 12 həftə sonra əmələ gəlir və fərqli intensivlikdə özünü biruzə verir. Bu əlamətlərdən aşağıdakıları sadalamaq olar:

***- İştahın itməsi;***

***- Ürəkbulanma və qusma;***

***- Ümumi zəiflik və yorğunluq;***

***- Qarında, xüsusilə də sağ qabırğaaltı nayihədə ağrılar;***

***- Sidiyin qara rəngdə olması;***

***- Dəri və gözün selikli qişasında saralma;***

***- Oynaqlarda ağrı;***

Heç bir əlamət olmasa, belə Hepatit B ilə yoluxmusunuzsa, o sizin qaraciyərinizi zədələyə bilər və özünüz də bilmədən sizdən digər insanlara keçə bilər. Odur ki, əgər azacıq da yoluxma təhlükəsini mümkün hesab edirsinizsə, mütləq müayinə olunun. Bununla həm özünüzü, həm də yaxınlarınızı qorumuş olarsınız. ATV.az <http://news.atv.az/> olaraq sizə hepatit B virusuna tutulmuş qaraciyərin sağalması üçün təbii müalicə metodları təklif edirik.

**1. Lavanda çiçəyi dəmlənilir yatmamışdan 30 dəqiqə öncə içilir. 1 ay davamlı edilməlidir.**

**2. Qarğıdalı saçağı**

**Boymadərən**

**Kasnı**

**Solmaz çiçəyi**

**Çobanyastığı**

**Dazıotu**

Hərəsindən 40 qr. götürülür 2 litr soyuq suda 12 saat saxlanılır, 5 dəqiqə odun üzərində qaynadılır, soyudulur, süzülür, soyuducuda saxlanmaq şərtilə gündə 4 dəfə 100ml (yarım st.) içilir. 1-si səhər acqarnına, digərləri yeməkdən 30 dəqiqə sonra içilir. Lakin bu dəmləmələri böyrək-öd daşı olanlar içə bilməz, mədəsində turşuluğu olanlar boymadərəni reseptdən çıxarsınlar. Bu müalicə zamanı pəhriz saxlanılsa, daha yaxşı olar (yağlı, qızartma olmaz). Pəhriz saxlanılmasa da, bu müalicənin arıqladıcı təsiri var. Bunlarla bərabər immunitetqaldırıcı vasitələr də içilməlidir: uzunsov balqabağın başı kəsilir, tumları təmizlənir, içinə 1st. xalis bal tökülür. 3-5 gün saxlanılır. Bal balqabağın suyu ilə qarışır, şüşə qaba süzülür, soyuducuda saxlanılır, gündə 3 dəfə 2x.q içilir. uşaqlara 3 dəfə 1 ç.q verilir.

Bunu bir neçə dəfə təkrar etmək lazımdır. sitrus meyvələr (portağal, limon, feyxua və s. ) sarımsaq, soğan, bal, tut doşabı gündəlik istifadə edilir.

**DƏMLƏMƏLƏR:** itburnu, qızıl gül ləçəkləri (təzyiq salmaması üçün şirin içilir) əzvay cövhəri, andız kökü. Hər biri 20 gün içilir. Yaxşı olar ki, gündəlik qara çayın əvəzinə dəmlənilib içilsin. Hər dəfə 1 stəkan çay süzüb içdikdə qara çayı nə qədər tökürsünüzsə, dəmləmələri də o qədər töküb üzərinə ağ tökəcəksiniz.

*3. Solmaz çiçəyi, çobanyastığı, tozağacı tumu, dazotu yuyulur, qurudulur, üyüdülür 4-ü də eyni miqdarda qarışdırılır. Bu qarışıqdan 1 x.q götürülür 1litr qaynar suda dəmlənilir, soyudulur, səhər-axşam yem. 30dəq. qab.1st 1ç.q balla qarışdırılır içilir.*

Bu qarışıq ildə yalnız 1 dəfə edilir. Bu dəmləməni qaraciyər problemindən əlavə öd, böyrək, mədə, bağırsaq xəstələri də içə bilər, qana gözəl təsir edir.

*4. Qreçka təmizlənilir, yuyulur, qurudulur, üyüdülür 1:1 nisbətində balla qarışdırılır gündə 3 x.q. qəbul edilir.*

*5. Ağ, qırmızı çuğundur sarı, qara kök ağ, qara turp. Hərəsindən 1 kq götür, şirəsini çək 0.5 kq bala qarışdır. Gündə 3 d. yem. 30 dəq. əvvəlcə stəkanın 1/4 hissəsi qədər, sonrakı günlər 100 ml-yə qədər artıraraq içilir. Soyuducuda saxlamaq lazımdır.*

*6. Limon, bal, zeytun yağı 1;1;1 nisbətinə qarışdırılır gündə 3d. 1x.q içilir.*

*7. 100 ədəd dəfnə yarpağı 2 litr suda yarısı qalana kimi qaynadılır, soyudulur üzərinə 100qr bal əlavə edilir, gündə 1x.q içilir.*

*8. Alaqanqal yarpağının - 1 st. şirəsi balqabaq şirəsi - 1 st şirin bibər şirəsi - 1st. ispanaq şirəsi - 1st bal - 0.5st qarışdırılır gündə 1x.q. içilir*

*9. Solmazçiçəyi - 100qr tozağacı tumurcuğu - 100qr kərəviz kökü - 100qr kalendula - 100qr bağayarpağı - 100qr Qarışdırılır 2x.q 0.5st suda dəmlənilir . Gündə 3d. 150qr. içilir. 3 aydan bir təkrarlamaq olar. 6 ay davamlı müalicə götürülür sonra qan analizi keçin .*

***Tahirə***



# Tez sağalmaq istəyirsinizsə YATIN

***İnsan xəstələnəndə daha çox yatmaq istəyir.***

Bu orqanizmin qoruyucu reaksiyası olub daha tez sağalmağa və bərpa olmağa kömək edir.

Elmi araşdırmalar göstərib ki, xəstəlik zamanı orqanizmin hüceyrələri stress vəziyyətinə düşür və orqanizm yuxu rejimini işə salır ki, streslə daha effektli şəkildə mübarizə etsin. Beləliklə, xəstəlik zamanı yuxululuq ona işarə edir ki, orqanizm bütün enerjisini infeksiya ilə mübarizə etməyə yönəldib.

Bu halda yuxululuğu dəf etməyə çalışmayın. Əksinə daha çox yatmağa çalışın ki, tez sağalasınız.

# Soyuducunuz təhlükə mənbəyidir, diqqətli olun

İngiltərəli alimlər soyuducuda insan orqanizmi üçün təhlükəli sayılan mikroorqanizmlərin olduğunu söyləyirlər. Bunu deməyə minlərlə evlərin soyuducularında aparılan araşdırmalar izin verir. Araşdırmalar əksər soyuducularda bağırsaq çöplərinin, salmonellaların və xəstəliklərə səbəb olan bakteriyaların olduğunu təsdiq edib. Mütəxəssislər hətta mətbəxdə ən kirli yerin soyuducu olduğunu deyirlər. Ən çox zərərverici mikrobların isə soyuducunun meyvə və tərəvəz yığılan hissəsində olduğunu söyləyən mütəxəssislər, burada hər 1 sm-də minlərlə mikrobun yaşadığını qeyd edirlər.



Əslində soyuducunun aşağı hissəsində mikrobların çox olduğuna təəccüblənmək lazım deyil. Çünki buraya yığılan meyvə və tərəvəzlər, göyərtilər yuyulmamış olur. Bu da bakteriyaların həmin hissədə çoxalmağına səbəb olur. Kənd təsərrüfatı məhsulları soyuducuya yuyularaq yığıla bilməz və bu məhsullar torpaqdan aldıqları zərərvericiləri özləri ilə soyuducuya daşıyır.

Araşdırmalar soyuducunun meyvə yığılan hissəsində hər santimetrində 7850 bakteriya olduğunun sübut etmişdir. Bu səbəbdən də soyuducunun içərisi ən azı ayda bir dəfə qaynar su ilə yuyulmalıdır. Bu soyuducunun daxilinin təmiz olmasına və orada saxlanılan yeməklərin insan orqanizmi üçün təhlükəli olmamasına səbəb olur.

## Allah rəhmət eləsin!

"Tovuz" qəzetinin kollektivi Ramiz Hümmətova əmisi oğlu

**Bəhmanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz rayon Statistika idarəsinin rəisi Niyazi Tağıyev və idarənin kollektivi Fərman Hümmətova qardaşı

**Bəhmanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

## Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**"Tovuz"**

qəzetinə 2017-cı ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə "Kapitalbank"ın Tovuz filialında abunə yazılmaq olar.

**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
***Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,***
***Telefon: 315-35-23***
***tovuz.1929@mail.ru***

***Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.***
***Sifariş 279. Tiraj: 1500.***